www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-10 (1793) 31 may 2024-cü il




## Universitetimiz “Zəfər festivalı 2”-də liderliyini qorudu

**Rektor, professor Gəray Gəraybəyli: Ölkə rəhbərliyi Azərbaycan gəncliyinə hər zaman xüsusi diqqət göstərir**

səh. 2

## Naxçıvanda “Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı” keçirilib

səh. 3

## ATU-nun “Brend tələbə”ləri mükafatlandırılıb

səh. 3

## Sonuncu kurs tələbələrinin Buraxılış imtahanı keçirilir

səh. 5



## “Bu əllərin soyu birdir, kökü bir”

Azərbaycan-Türkiyə qardaşlığına həsr olunmuş ədəbi-bədii gecə keçirilib

səh. 2

## ATUREK-12-nin qaliblərinə diplomlar təqdim olunub

*Rektor, professor Gəray Gəraybəyli: “ATUREK” brendi ildən-ilə inkişaf edir və daha çox tanınır*

səh. 3

## “Beynəlxalq mübadilə və tədqiqat imkanları”

*Ali təhsilin inkişafına töhfə verən beynəlxalq layihələr haqda detallı müzakirələr aparılıb*

səh. 4



## Səmərqənd Tibb Universiteti ilə memorandum imzalamışıq

İki ali məktəb arasında münasibətlər çoxillik tarixə söykənir

səh. 2

# Universitetimiz “Zəfər festivalı 2”-də liderliyini qorudu

## Rektor, professor Gəray Gəraybəyli: Ölkə rəhbərliyi Azərbaycan gəncliyinə hər zaman xüsusi diqqət göstərir



**Mayın 27-də ATU-nun Tədris İdman Kompleksində Nəsimi Rayon İcra Hakimiyyəti, Azərbaycan Tibb Universiteti, Nəsimi rayon Gənclər və İdman İdarəsi və ATU-nun “Təbib” İdman Klubunun birgə təşkilatçılığı ilə Müstəqillik Gününə həsr olunmuş ali təhsil müəssisələrinin tələbələri arasında “Zəfər festivalı 2” idman yarışlarının təltifolunma mərasimi keçirilib.**

Tədbirdə Milli Məclisin vitse-spikeri, Gənclər və idman komitəsinin sədri Adil Əliyev, Nəsimi rayon İH başçısı Asif Əsgərov, ATU-nun rektoru, professor Gəray Gəraybəyli, professor-müəllim heyəti və tələbələr, idman klubunun sədri Qələndər Aslanov, YAP Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov, "Gənclik" Tələbə İdman Cəmiyyəti, Nəsimi rayon Gənclər və İdman İdarəsi və müxtəlif idman qurumlarının nümayəndələri iştirak ediblər.

Əvvəlcə qonaqlar Tədris İdman Kompleksində yerləşən şəhidlərin barelyefi önünə gül dəstələri düzüblər. Daha sonra kompleksin həyətində musiqi sədaları altında müxtəlif idman növləri üzrə nümunəvi çıxışlar izlənilib. Nümunəvi çıxışlardan sonra Dövlət Himninin səsləndirilməsi ilə tədbir açıq elan edilib.

Tədbirdə çıxış edən rektor, professor Gəray Gəraybəyli yarış iştirakçılarını salamlayaraq, onları Azərbaycan Tibb Universitetində görməkdən məmnun olduğunu diqqətə çatdırıb.

Qeyd edib ki, ali təhsil müəssisələrinin tələbələri və əməkdaşları arasında keçirilən bu festivalda ölkəmizin əksər universitetləri təmsil olunub. Tarixi zəfərimizin adını daşıyan idman festivalında iştirak etməyin özünün artıq bir qalibiyyət olduğunu söyləyən rektor, ölkə rəhbərliyi tərəfindən Azərbaycan



gəncliyinə hər zaman xüsusi diqqət ayrıldığını vurğulayıb. Eyni zamanda Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı qələbənin hər kəsdə böyük qürur hissi yaratdığını deyib. Zəfər festivalında zəhməti olan bütün məşqçiləri, idmançıları təbrik edən rektor, universitetimizdə belə festvalların ənənəvi olaraq daha geniş, daha mütəşəkkil şəkildə keçiriləcəyinə əminliyini bildirib.

Öz çıxışında bu festivalı ali məktəblərdə yaradılan idman mühitinin göstəricisi kimi dəyərləndirən Milli Məclisin vitse-spikeri Adil Əliyev bildirib ki, bu tədbirlərin hər biri Azərbaycan idmanının inkişafına, bütün dünyada tanınmasına xidmət göstərir. Azərbaycanın artıq idman ölkəsi kimi tanındığını söyləyən vitse-spiker, bu sahənin sürətli inkişafının Ulu Öndərin adı ilə bağlı olduğunu, Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirdiyini, məntiqi nəticə olaraq ölkəmizin bir çox sahələrdə, o cümlədən idmançılarımızın yerli və beynəlxalq turnirlərdə qazandıqları nailiyyətlərə görə regionun lider dövlətinə çevrildiyini söyləyib.

Xatırladaq ki, ATU-nun Tələbə Həmkarlar İttifaqı Komitəsinin də yaxından dəstəyi ilə mayın 4-dən 25-dək keçirilən idman yarışlarında 22 ali təhsil müəssisəsinin komandaları iştirak ediblər. İdmançılar stolüstü tennis, badminton, şahmat, futzal, qol güləşi, voleybol (oğlanlar), voleybol (qızlar) və digər idman növləri üzrə öz güclərini sınayıblar.

“Zəfər festivalı 1”-də olduğu kimi, “Zəfər festivalı 2”-də də Azərbaycan Tibb Universitetinin komandaları öz liderliyini qoruya bilib. Festivalın təntənəli bağlanış mərasimində qaliblər kubok, diplom və medallarla təltif olunub.

**İran İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi Azərbaycan Tibb Universitetində olub. ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşdə iki ölkə arasında tibb təhsili sahəsində mövcud durum və əməkdaşlıq məsələləri müzakirə olunub.**

# İran İslam Respublikasının səfiri ATU-da olub



Professor G.Gəraybəyli qonağa ölkənin ən qocaman ali məktəblərindən biri olan ATU-da həyata keçirilən islahatlar, təhsil sistemində tətbiq olunan yeniliklər haqqında məlumat verib. O, üç ixtisas üzrə tədris proqramlarının beynəlxalq akkreditasiyası əldə olunduqdan sonra dünyanın bir çox ölkələrində ATU-ya marağın daha da artdığını qeyd edib.

Rektor əcnəbi tələbə sayına görə Azərbaycanda ilk yerdə olan Tibb Universitetində təhsil alanlar arasında İran İslam Respublikası vətəndaşlarının kifayət qədər olduğunu bildirib.

Artıq ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatdığını bildirən səfir Seyid Abbas Musəvi, ötən dövrdəki əməkdaşlığa görə universitet rəhbərliyinə təşəkkür edib. O, iranlı tələbələrin yaşayışı və təhsili üçün ATU-da yaradılmış şəraitdən razı olduqlarını söyləyib.

# Səmərqənd Tibb Universiteti ilə memorandum imzalamışıq

**Azərbaycan Tibb Universitetinin Özbəkistanın Səmərqənd Tibb Universiteti ilə əlaqələri növbəti mərhələyə qədəm qoyub. Belə ki, iki ali təhsil müəssisəsi arasında əməkdaşlığa dair memorandumu imzalanıb.**



İmzalanma mərasimində ATU-nun rektoru, professor Gəray Gəraybəyli çıxış edərək, iki ali məktəb arasında münasibətlərin çoxillik tarixə söykəndiyini bildirib. O indiyədək universitetlər arasında qarşılıqlı səfərlər, birgə layihələrin həyata keçirildiyini, ötən il ATU-nun tələbələrinin IV Beynəlxalq “Səmərqənd-2020” Olimpiadasında uğur qazandığını xatırladıb. Rektor sazişin imzalanmasından sonra əməkdaşlıq əlaqələrinin daha da güclənəcəyini, iki universitetin müştərək beynəlxalq proqramlarda iştirakının təmin olunacağını qeyd edib.

Səmərqənd Tibb Universitetinin rektoru, professor Jasur Rizayev memorandumun iki universitet arasında hərtərəfli əməkdaşlığın inkişafı baxımından çox əhəmiyyətli olduğunu vurğulayıb. O qarşılıqlı əməkdaşlığın tələbə və müəllim mübadiləsi ilə yanaşı, mövcud təcrübənin paylaşılması, ikili diplomların reallaşmasına da aid olacağını bildirib.



# “Bu əllərin soyu birdir, kökü bir”

## Azərbaycan-Türkiyə qardaşlığına həsr olunmuş ədəbi-bədii gecə keçirilib

**Mayın 23-də Azərbaycan Tibb Universitetində Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə Azərbaycan-Türkiyə qardaşlığına həsr olunmuş “Bu əllərin soyu birdir, kökü bir” adlı təntənəli ədəbi-bədii gecə keçirilib. Tədbirdə ATU rəhbərliyi, professor-müəllim heyəti, tələbələr, tanınmış ictimai xadimlər, o cümlədən Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı xanımı ilə birgə iştirak edib.**

Tədbirin aparıcıları - Müalicə-profilaktika fakültəsinin 1-ci kurs tələbəsi Aydan Qocayeva, 3-cü kurs tələbəsi Nigar Babayeva bildiriblər ki, may ayı istər Azərbaycan, istərsə də qardaş Türkiyənin həyatında, o cümlədən Ulu Öndər Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün həyatında önəmli yerə malikdir. Belə ki, mayın 10-u Heydər Əliyev, 19-u isə Mustafa Kamal Atatürkün doğum günləridir. Hər il mayın 19-u Atatürkü anma, Gənclik və İdman Bayramı kimi qeyd olunur. Mayın 28-i isə Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gündür.

Bu əlamətdar tarixlərə həsr olunmuş tədbirdə əvvəlcə Türkiyə və Azərbaycanın torpaqları uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib. Sonra söz musiqiyə verilib. Tələbələr “İncəbellim” mahnısını ifa ediblər.

Tədbirdə iki xalqın qardaşlığına dövlət başçıları səviyyəsində göstərilən xüsusi diqqət önə çəkilib. Bu il fevralın 14-də ölkə başçısı İlham Əliyevin andiçmə mərasimində səsləndirdiyi fikirlərdən sitat gətirilib: “Bizim ailəmiz türk dünyasıdır. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür”.

“Çinar” rəqs ansamblının “Nəlbəki” rəqsini ifa etməsinin ardınca Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2018-ci ildə Bakının azad edilməsinin 100 illiyinə həsr olunmuş tədbirdəki tarixi çıxışından bir hissə nümayiş olunub: “Dəyərli dostlarım, Azərbaycanın sevinci bizim sevincimiz, qüruru bizim qürurumuzdur. Dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik”.

Azərbaycan Tibb Universitetinin qardaş ölkədən olan tələbəsi Liva Bitmezin ifa etdiyi “100 il marşı” böyük coşqu ilə qarşılanıb. Həmçinin Türk tarixinə qızıl hərflərlə yazılmış Çanaqqala döyüşü, qardaş Azərbaycan türklərinin döyüşdə göstərdiyi qəhrəmanlıq və fədakarlıqlar xatırlanıb. Azərbaycandan köməyə gələnlərdən 284 nəfərin bu döyüşdə şəhid olduğu diqqətə çatdırılıb.

MPF-nin 5-ci kurs tələbəsi Ülkər Gülmalıyevanın ifa etdiyi “Mən azərbaycanlıyam” mahnısı tədbirə xüsusi rəng qatıb. Onun ifası zamanı monitorda Ulu Öndərin “Azərbaycan” şeirini səsləndirməsi nümayiş etdirilib.

Azərbaycanın dar günündə də Türkiyənin yardıma yetişməsi, xüsusilə 1918-ci ildə Nuru Paşanın komandanlığı altında Bakının işğaldan azad edilməsi ehtiramla xatırlanıb.

Sonra MPF-nin 6-cı kurs tələbəsi Fatimə Mirkazımlının pianoda müşayiəti ilə “Lalələr” mahnısı səsləndirilib. “Şəfa” xalq çalğı alətləri ansamblının üzvləri öz rəqsləri ilə tədbiri daha da canlandırıb.

Universitetimizdə təhsil alan 3 minə yaxın əcnəbi tələbə arasında qardaş Türkiyədən olanların çoxluq təşkil etdiyi də diqqətə çatdırılıb: “Bu gün ATU-da 48 ölkədən 3 minə yaxın tələbə və dinləyici təhsil alır. Bunlardan 1305 nəfəri Türkiyə Cümhuriyyətinin payına düşür. Onların 846-ı tələbə, 459-u isə dinləyicidir”.

İki ölkə arasında qardaşlıq əlaqələrinin ildən-ilə daha da güclənməsinin şərəfinə tələbələrin ifasında səsləndirilən şerlər, “Çinar” rəqs ansamblı üzvlərinin təqdim etdiyi “Zəngəzur yallısı” alqışlarla qarşılanıb, Əhməd Cavadın “Çırpınırdı Qara dəniz”i isə zalda əyləşənlərin birgə ifası ilə başa çatıb.

Azərbaycan və Türkiyə bayraqlarının Hərbi tibb fakültəsinin tələbələri tərəfindən səhnəyə gətirilməsi və adıçəkilən fakültənin tələbəsi Şövqi Tağızadənin çıxışı zalda coşquya səbəb olub:

*Qovuşacaq bölünənlər, bölənlər,*
*Nurlanacaq qaranlıqlar, kölgələr,*
*Diriləcək Oğuzxanlar, Bilgələr,*
*Türkə səcdə, türkə təzim olacaq,*
*Bugün-sabah dünya bizim olacaq!*
*Bugün-sabah dünya Türkün olacaq!*

Və ardınca zalda dalğalanan ay-ulduzlu bayraqlara baxaraq səsləndirdiyi fikirlər tədbir iştirakçılarını ayağa qaldırıb:

*...Ürəyimdə bir dilək var!*
*O da doğru kəsilsin!*
*O gün olsun bu bayraqlar*
*İrəvanda, Zəngəzurda*
*Turan üstə açılsın!*

**Qabil ZİMİSTANOĞLU**

# Naxçıvanda "Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı" keçirilib

## Tədbirdə ATU-nun böyük nümayəndə heyəti iştirak edib





**Mayın 22-23-də Azərbaycan Tibb Universiteti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Naxçıvanda "Tibb tələbələri və gənc tədqiqatçıların respublika konfransı" keçirilib. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyinə həsr olunmuş konfransın açılış mərasimindən öncə qonaqlar Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Ulu Öndərin xatirəsini dərin ehtiramla yad ediblər.**

Heydər Əliyev Muzeyi ilə tanışlıq çərçivəsində tədbir iştirakçılarına görkəmli dövlət xadiminin şərəfli ömür yolunu əks etdirən fotoşəkillər, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər, xatirə əşyaları və digər dəyərli eksponatlar barədə ətraflı məlumat verilib.

Konfransda salamlama nitqi ilə çıxış edən Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus Əliyev tədbirin əhəmiyyətindən danışıb. O, ATU ilə əməkdaşlıq çərçivəsində həyata keçirilən önəmli layihələr, birgə araşdırmalardan bəhs edərək, bu konfransın da tələbə və tədqiqatçıların elmi müzakirələri, gənc alimlərin potensialının reallaşdırılması istiqamətində səmərəli platforma olacağına əminliyini bildirib. Hazırda dünyada elm sahəsində hökm sürən rəqabət şəraitində hər bir universitetin, ali təhsil mərkəzinin yüksək ixtisaslı kadrlar yetişdirmək üçün elmi tədqiqatların məzmununun gücləndirilməsi, sayının artırılmasına ehtiyacı olduğunu vurğulayan rektor, konfransın işinə uğurlar arzulayıb.

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli tibb təhsili sahəsində böyük əhəmiyyət daşıyan bu tədbirin qədim Naxçıvanda keçirilməsinin sevindirici hal olduğunu bildirib. O, Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətinin əsas istiqamətlərindən birinin gənclərə və təhsilə daimi diqqət və qayğı olduğunu xatırladıb: "Ulu Öndərin hakimiyyəti dövründə məhz onun səyləri ilə respublikamızın istedadlı gənclərinin sovet ittifaqının aparıcı universitetlərində təhsilinə şərait yaradılıb. İllər keçdikcə, bu cür gənclərin sayı artıb. Ulu Öndər hər il avqustun son günlərində müxtəlif universitetlərdə təhsil alacaq gənclərlə görüşüb, onları şəxsən təbrik edirdi. Həmin dövrdə elmə, təhsilə göstərilən bu cür diqqət qısa müddət sonra öz bəhrəsini verməyə başladı".

ATU-nun rektoru bu siyasətin indi də dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Məhz bu yanaşma sayəsində Azərbaycanın ali təhsil mərkəzləri artıq dünyada rəqabətqabiliyyətli universitetlərə çevrilməkdədir.

Professor G.Gəraybəyli ATU-nun dünyada 900-dən çox ali məktəbi birləşdirən "Magna Charta Universitatum" - Universitetlərin Böyük Xartiyasına üzv olduğunu, Azərbaycanda ilk dəfə olaraq 3 ixtisas üzrə universitetin tədris proqramının beynəlxalq akkreditasiyadan keçdiyini xatırladıb. Rektor çıxışının sonunda universitetlərin və tələbələrin elmi istiqamətdə inkişafında Tələbə Elmi cəmiyyətlərinin rolunu xüsusi qeyd edib. Naxçıvan Dövlət Universiteti ilə faydalı əməkdaşlıq çərçivəsində təşkil olunan konfransın əhəmiyyətini vurğulayan professor G.Gəraybəyli, gənc tədqiqatçılara uğurlar arzulayıb.

Daha sonra ATU və NDU-nun Tələbə Elmi cəmiyyətlərinin rəhbərləri Müşviq Həsənov və Təbrizə Bağırova çıxış ediblər. Çıxışların ardınca Muxtar Respublikanın 100 illiyindən bəhs edən videoçarx nümayiş olunub.

Konfransın plenar sessiyalarında hər iki universitetdən olan gənc tədqiqatçılar müxtəlif mövzularda təqdimatlar ediblər. Növbəti gün konfrans çərçivəsində kliniki təbabət, tibbi biologiya, ictimai sağlamlıq, əczaçılıq, qida təhlükəsizliyi və stomatologiya mövzularında panel sessiyaları keçirilib.

Qeyd edək ki, Azərbaycan Tibb Universiteti bu tədbirdə geniş nümayəndə heyəti ilə təmsil olunub. İlk dəfə olaraq ATU-nun 30-a yaxın müəllimi və 50-dən çox tələbəsi Naxçıvana səfər edib.

Xatırladaq ki, 2 il öncə hər iki universitetin birgə təşkilatçılığı ilə Naxçıvanda I Beynəlxalq Tibb Forumu keçirilmişdi.



# Türk Universitetlər Birliyinin 7-ci Baş Assambleyasının iclası olub

**Mayın 20-də Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) ev sahibliyi ilə Türk Universitetlər Birliyinin (TÜRKÜNİB) 7-ci Baş Assambleyasının iclası baş tutub. Beynəlxalq tədbirdə türk dövlətlərindən 50-yə yaxın universitetin rektorları, elm və təhsil nümayəndələri iştirak edib.**

Tədbirin açılışında türk dünyası şəhidlərinin xatirəsi ehtiramla yad edilib, tədbirlə bağlı videoçarx nümayiş olunub.

Açılış nitqi ilə çıxış edən UNEC-in rektoru, professor Ədalət Muradov iştirakçıları salamlayaraq, UNEC-in TÜRKÜNİB-ə sədrliyi dövründə gördüyü işlər barədə məlumat verib. Bildirib ki, 2024-2025-ci il üçün elm, təhsil və sosial sahələr üzrə bir çox tədbir və layihələri əhatə edən Yol Xəritəsi Layihəsi hazırlanaraq, TÜRKÜNİB-in Baş Assambleyasına təqdim edilib. Rektor bu günkü iclasda üzvlüklə bağlı 60 universitetin müraciətinə baxılacağını və birliyin gələcək fəaliyyəti üçün əhəmiyyətli olan məsələlərin müzakirə ediləcəyini bildirib.

Baş Assambleyada iştirak edən Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev iştirakçıları salamlayaraq, təşkilatın gördüyü işlərdən və qarşıda duran vəzifələrdən söz açıb.

Azərbaycan Respublikasının elm və təhsil nazirinin müavini Həsən Həsənli türk dünyası dövlətləri ilə elm və təhsil sahəsində həyata keçirilən əməkdaşlıqdan və əldə olunan müsbət nəticələrdən danışıb. O, Assambleyada veriləcək qərarların bu əməkdaşlığın daha da genişləndirilməsinə və möhkəmlənməsinə zəmin yaradacağını diqqətə çatdırıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti, professor Şahin Mustafayev türk dünyası dövlətlərinin rəhbərlərinin uğurlu əməkdaşlığından söz açaraq, bu əməkdaşlığın türk dünyası ölkələri arasında elm, təhsil, ümumilikdə ortaq dəyərlərin mənimsənilməsinə münbit zəmin yaratdığını vurğulayıb. O, təkliflərin həyata keçirilməsi məqsədilə TÜRKÜNİB-də əlaqələndirmə mərkəzinin qurulmasının səmərəli ola biləcəyini də deyib.

Açılış nitqlərindən sonra Baş Assambleya öz işini müzakirələrlə davam etdirib. İclasda TÜRKÜNİB-ə üzv olan universitetlərin elm və təhsil sahəsində proqramlarının uyğunlaşdırılması, mübadilə proqramlarının sayının artırılması, diplomların ekvivalentliyinin tanınması və s. istiqamətlərdə müzakirələr aparılıb. TÜRKÜNİB-ə müraciət etmiş 60 universitet birliyə üzv qəbul olunub və beləliklə üzvlərin sayı 109-a çatıb.

Xatırladaq ki, Azərbaycan Tibb Universiteti Türk Universitetlər Birliyinin üzvüdür və birliyin 7-ci Baş Assambleyasının iclasında universitetimizin rektoru, professor Gəray Gəraybəyli və Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev də iştirak ediblər.

# ATUREK-12-nin qaliblərinə diplomlar təqdim olunub

## Rektor, professor Gəray Gəraybəyli: "ATUREK" brendi ildən-ilə inkişaf edir və daha çox tanınır

**Xəbər verdiyimiz kimi, aprelin 23-də Ümummilli Lider Heydər Əliyevin 101 illiyinə həsr olunmuş ATUREK-12 - rezidentlərin və magistrantların elmi-təcrübi konfransı keçirilmişdi. Konfransda uğurlu çıxışları ilə fərqlənən rezident və magistrantlara diplomlar təqdim olunub.**



ATU-nun rektoru, professor Gəray Gəraybəyli qalibləri təbrik edərək, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Rektor bildirib ki, builki konfransla bağlı ictimai rəy, müxtəlif baza rəhbərləri tərəfindən səsləndirilmiş fikirlər, eləcə də iştirakçıların sayı və elmi məqalələrin səviyyəsi bir daha təsdiq edib ki, "ATUREK" brendi ildən-ilə inkişaf edir və daha çox tanınır: "Əminəm ki, gələcək konfranslarda nəinki digər bazaların, həmçinin başqa universitetlərin mütəxəssisləri, rezidentləri də iştirak edəcəklər. Sizləri belə həvəsli, istəkli görmək çox sevindiricidir. Hamımız bilirik ki, həkimlik fəaliyyətində elmi istiqamət çox önəmlidir. Günümüzdə elmi araşdırma, elmi təhlil qabiliyyəti olmadan yaxşı tibb işçisi olmaq mümkün deyil.

Bu gün biz məmnuniyyətlə 40 nəfəri mükafatlandıracağıq. Sizlərə gələcək fəaliyyətinizdə uğurlar arzu edirəm və inanıram ki, elmi istiqamətdə işlərinizi davam etdirəcəksiniz".

Qeyd edək ki, ATUREK-12 konfransının elmi hissəsi öz işini 9 panel üzrə davam etdirib. Konfransa 200-ə yaxın tezis təqdim olunub, ümumilikdə 127 məruzə dinlənilib. Hazırda ATU-da 54 rezidentura və 9 magistratura ixtisası üzrə 70 nəfəri əcnəbi olmaqla 700 nəfər rezidentura pilləsində, 4 nəfəri əcnəbi olmaqla 119 nəfər magistratura pilləsində təhsil alır.

**AzEdu.az təhsil portalı və ali məktəblərin birgə həyata keçirdiyi "Brend tələbə" layihəsi çərçivəsində xüsusi meyarlara uyğun seçilən tələbələrin mükafatlandırılması davam edir. Bu günlərdə ATU-da təhsil alan "Brend tələbə"lər təltif olunub.**

# "Brend tələbə"lər mükafatlandırılıb



Tədbirdə AzEdu.az-ın təsisçisi, Parlament Jurnalistləri Birliyinin sədri Elşad Eyvazlı, ATU Tədris departamentinin müdiri, fakültə dekanları, THİK sədri, İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri və həmin statusa layiq görülmüş tələbələr iştirak ediblər.

Tədris departamentinin müdiri, dosent Kamandar Yaqubov tələbələrə daim belə seçilməyi arzu edib və tədbir iştirakçılarına universitetdəki yeniliklər haqqında məlumat verib. E.Eyvazlının çıxışından sonra "Brend tələbə"lərə təltifnamələr təqdim olunub və xatirə şəkli çəkilib.

"Brend tələbə"lərimiz bunlardır:

**Həşimova Aybəniz Polad qızı** - I Müalicə-profilaktika fakültəsi, III kurs;

**İbrahimova Zəhra Namiq qızı** - I Müalicə-profilaktika fakültəsi, III kurs;

**Kərimzadə Şəbnəm Şəhriyar qızı** - II Müalicə-profilaktika fakültəsi, V kurs;

**Nəzərov Aqil Elnur oğlu** - II Müalicə-profilaktika fakültəsi, IV kurs;

**Kərimli Məryəm İlham qızı** - Stomatologiya fakültəsi, III kurs;

**Məmmədov Röyal Azər oğlu** - Stomatologiya fakültəsi, IV kurs;

**İsgəndərova Ləman İsgəndər qızı** - Əczaçılıq fakültəsi, I kurs;

**Hüseynli Nihad İntizam oğlu** - Əczaçılıq fakültəsi, II kurs;

**Saruxanov Ceyhun Saruxan oğlu** - İctimai səhiyyə fakültəsi, III kurs;

**Rəhmanlı Fidan Faiq qızı** - İctimai səhiyyə fakültəsi, IV kurs.

**Azərbaycan əsilli ilk Nobel Sülh mükafatçısı Bəxtiyar Siracov Azərbaycan Tibb Universitetinin qonağı olub. İnsan anatomiyası və tibbi terminologiya kafedrasını ziyarət edən məşhur azərbaycanlı alim "Anatomiya muzeyi" ilə yaxından tanış olub.**



# Azərbaycan əsilli ilk Nobel Sülh mükafatçısı qonağımız olub

Elmi işlər üzrə prorektor, professor Rauf Bəylərov, İnsan anatomiyası və tibbi terminologiya kafedrasının müdiri, dosent Anar Abdullayev qonağa universitetin fəaliyyəti, o cümlədən adıçəkilən kafedranın işi haqqında məlumat veriblər. 6 mindən artıq eksponatın yer aldığı kafedra nəzdindəki Anatomiya muzeyinin tələbələr üçün əhəmiyyəti qeyd edilib. Məşhur alim kafedranı ziyarət etməsindən məmnun qaldığını bildirib. O, Azərbaycanda təhsil aldığı illəri, müəllimlərini xatırlayaraq, istənilən dövlətin inkişafında elmin böyük rol oynadığını qeyd edib. ATU-nun məzunlarının bu gün dünyanın nüfuzlu elm mərkəzləri və xəstəxanalarında çalışdığını söyləyən B.Siracov görüş üçün universitet rəhbərliyinə təşəkkürünü bildirib.

Qeyd edək ki, 26 il ərzində Atom Enerjisi üzrə Beynəlxalq Agentlikdə (AEBA) çalışan Bəxtiyar Siracov Norveç Sülh Komitəsinin qərarı ilə 2005-ci ildə Nobel Sülh mükafatına layiq görülən ilk azərbaycanlı alimdir.

# IAAR nümayəndələri ilə görüş keçirilib

**Müstəqil Akkreditasiya və Reytinq Agentliyinin (IAAR) xarici ekspert komissiyasının tövsiyələrinin yerinə yetirilməsi ilə bağlı müzakirələr aparılıb. Tədris işləri üzrə prorektor, professor Sabir Əliyevin rəhbərliyi ilə IAAR nümayəndələri ilə onlayn görüşdə “Müalicə işi”, “Stomatologiya” və “Əczaçılıq” tədris proqramlarının akkreditasiyadan sonrakı müddətdə monitorinqinin nəticələri və tövsiyələrin icrasının mövcud durumu barədə fikirlər səsləndirilib.**



Görüş zamanı qeyd edilib ki, tövsiyələrin icrası çərçivəsində ATU-nun yeni inkişaf strategiyası hazırlanıb, missiya və baxış prioritetləri müəyyənləşdirilib. Akkreditasiya ilə əlaqəli maraqlı tərəflər dairəsi müəyyən edilib, onlarla görüş və sorğular keçirilib, monitorinq aparılıb.

Həmçinin ATU-nun fəaliyyətinin təkmilləşdirilməsi üçün bu müddət ərzində müəyyən sahələrin idarə edilməsinə dair təlimatlar, əsasnamələr hazırlanıb. Tövsiyələrin həyata keçirilməsi ilə bağlı müzakirələrdə adları qeyd olunan fakültələrin dekanları - Fərəh Mədətli, Elmira Əliyeva, Elşad Novruzov və Tədris Departamentinin nümayəndələri iştirak ediblər.

Bundan əlavə, İnnovasiya və keyfiyyətin idarə olunması şöbəsinin müdiri Aygün Babayeva bu şöbənin fəaliyyəti ilə bağlı sualları ətraflı şəkildə cavablandırıb. O, akkreditasiyalarla iş (yerli və beynəlxalq), dünya reytinqləri, təhsildə, elmi və ictimai fəaliyyətdə keyfiyyətin monitorinqi haqqında danışıb, həmçinin ATU-nun fəaliyyətinin müxtəlif istiqamətləri üzrə meyarları özündə birləşdirən keyfiyyət siyasəti və keyfiyyət təlimatı kimi sənədlər barədə məlumat verib. Şöbə müdiri AMEE Guides əsasında tədris prosesinə tətbiq edilən innovativ tədris və qiymətləndirmə metodlarından da söz açıb.

# “Beynəlxalq mübadilə və tədqiqat imkanları”

## Ali təhsilin inkişafına töhfə verən beynəlxalq layihələr haqda detallı müzakirələr aparılıb

**Tədris Cərrahiyyə Klinikasında universitetin Beynəlxalq əlaqələr şöbəsinin təşəbbüsü ilə “Beynəlxalq mübadilə və tədqiqat imkanları” mövzusunda məlumat günü keçirilib.**





Konfransı giriş sözü ilə açan Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev qonaqları universitet rəhbərliyinin adından salamlayaraq, beynəlxalq mübadilə proqramlarının və tədqiqat qrantlarının institusional akkreditasiya, proqram akkreditasiyası və beynəlxalq reytinqlərdə rolundan geniş bəhs edib. Azərbaycan Tibb Universiteti tələbə və müəllimlərinin də Erasmus+ proqramının verdiyi üstünlüklərdən bəhrələndiyini vurğulayan prorektor, ATU-nun bu layihədə daim fəal iştirak edən universitetlərdən biri olduğunu deyib. Bundan başqa, Horizon Europe, COST, Jean Monnet, Marie Sklodowska-Curie proqramlarının da əhəmiyyətini qeyd edən prorektor, bu proqramların alimlər qarşısında geniş imkanlar açdığını bildirib. Çıxışında universitet əməkdaşlarını fəal olmağa və proqramların üstünlüklərindən yararlanmağa çağıran O.İsayev, ATU-nun struktur vahidləri üzrə beynəlxalq əlaqələrə məsul koordinatorlara aktiv fəaliyyət istiqamətləri üzrə qarşıya qoyulan tələbləri çatdıraraq, onlara gələcək fəaliyyətində uğurlar arzulayıb.

Erasmus+ Azərbaycan ofisinin rəhbəri Pərviz Bağırov Azərbaycanda ali təhsilin hərtərəfli inkişafı məqsədilə həyata keçirilən beynəlxalq layihələrin əhəmiyyətindən danışıb. O, Erasmus+ layihələrinin qaydaları, proqramın əsas istiqamətləri, yerli və xarici universitetlərin layihədə iştirakı, yeni layihələr və perspektivlər barədə ətraflı məlumat verib. Eləcə də Avropa İttifaqının ali təhsil müəssisələri ilə beynəlxalq əməkdaşlığın genişləndirilməsində Erasmus+ proqramının və Aİ-nin dəstəklədiyi digər təhsil proqramlarının imkanlarından səmərəli istifadə edilməsinin zəruriliyini önə çəkib.

O, Avropa Komissiyasının layihələrin idarə edilməsi siyasətindəki bir sıra yeni dəyişiklikləri vurğulayaraq, həyata keçiriləcək layihələrin bu dəyişikliklərə uyğun olmasının vacibliyini diqqətə çatdırıb və yeni Erasmus+ proqramı, onun genişspektrli elmi istiqamətləri və maliyyə mexanizmləri haqqında ətraflı məlumat verib. Əlavə edib ki, bu proqramın üstünlüyü onun bütün dünyaya açıq olmasıdır.

Horizon Europe proqramının tibb üzrə milli əlaqələndiricisi, ATU-nun II Uşaq xəstəlikləri kafedrasının assistenti, t.ü.f.d. Püstə Orucova çıxış edərək, proqram haqqında ümumi məlumat verib və əsas istiqamətlərdən biri olan səhiyyə klasteri üzrə geniş fəaliyyət istiqamətləri, xüsusilə prioritet sahələri əhatə edən iş proqramında və Horizon portalında müvafiq çağırışların araşdırılması, tərəfdaşlara müraciət qaydalarını nəzərə çatdırıb. Məruzəçi proqramın məqsədlərini, gözlənilən nəticələri, maliyyə imkanlarını, həmçinin bu çağırışlarda iştirak üçün qeydiyyatdan keçmiş təşkilatlar haqqında məlumatları tədbir iştirakçıları ilə bölüşüb, layihələrə qoşulmağın əhəmiyyətini qeyd edib.

COST fəaliyyəti üzrə milli əlaqələndirici şəxs, Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Keyfiyyət təminatı departamentinin direktoru İlham Hümbətov “COST proqramı. İştirak imkanları” mövzusunda etdiyi məruzədə Avropa Komissiyasının (AK) proqramlarından olan COST fəaliyyəti, portal üzərindən qeydiyyat, layihələrin müəyyənləşdirilməsi və onlara qoşulmaq qaydaları, tərəfdaşlarla əlaqələrin yaradılması barədə geniş məlumat verib. Məruzəçi Azərbaycan mütəxəssislərinin bu proqram üzrə nailiyyət statistikasını iştirakçıların diqqətinə çatdırıb. O, COST fəaliyyətinə qoşulmaq üçün layihələrin müəyyənləşdirilməsi və müraciətlərin hazırlanması qaydalarını da izah edib. Məlumat verib ki, 1971-ci ildə yaranan COST elmi tədqiqatlar və texnologiya sahəsində koordinasiyanı təmin edən dövlətlərarası proqramdır. 2013-cü ildə isə hüquqi statusunu dəyişərək dövlətlərarası qeyri-kommersiya assosiasiyası olub. COST 2013-cü ildən bəri Azərbaycan da daxil olmaqla, dünyanın 41 ölkəsi ilə əməkdaşlıq edir. İndiyədək 50-ə yaxın azərbaycanlı alim və mütəxəssis COST layihəsinin iştirakçısı olub. Bu siyahıda Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin təmsil olunması müsbət hal kimi qiymətləndirilib.

Tədbirdə çıxış edən Alman Akademik Mübadilə Xidməti (DAAD) proqramının ATU üzrə yerli əlaqələndiricisi, ATU-nun Patoloji fiziologiya kafedrasının dosenti Sevinc Pənahova Almaniyada təhsil, DAAD proqramının fəaliyyəti və təqaüd proqramları, müraciət şərtləri, tələb olunan sənədlər toplusu və seçim meyarları haqqında ətraflı məlumat verib.

Çıxışlardan sonra məruzəçilər iştirakçıların suallarını cavablandırıb, müzakirələr aparılıb.

# Əməkdaşlarımız I İzmir Uşaq Beynəlxalq Konqresində iştirak ediblər

**Mayın 9-11-də Türkiyənin İzmir şəhərində I İzmir Uşaq Beynəlxalq Konqresi keçirilib. Doktor Behçet Uz Uşaq Xəstəlikləri və Cərrahiyyə Tədris və Araşdırma Xəstəxanasının baş həkimi, konqresin sədri, professor Behzat Ozkan açılış nitqində bildirib ki, 8500 illik tarixi ilə çox güclü bir miras daşıyan İzmir şəhəri tarixi boyu Het, İon, Lidiya, Fars, Ellin, Roma, Bizans, Aydınoğullar və daha sonralar Osmanlı sivilizasiyalarına şahidlik edib.**




“Bu sivilizasiyaların mədəni toplanması nəticəsində multikultural quruluşa yiyələnən İzmir elmin, sənətin və sivilizasiyanın beşiyi, müasir tibbin inkişaf etdiyi şəhər və həkim Qalenin doğulduğu yerdir. Biz bu böyük və gözəl irsi bilərək, İzmirin uşaq sağlamlığı və xəstəlikləri sahəsində mütəxəssis hazırlığı həyata keçirən bütün uşaq təhsili müəssisələri ilə bir araya gəldik və “Birlik gücdür” prinsipini birgə təşkilatçılıq yolu ilə həyata keçirməyə qərar verdik” – professor Behzat Ozkan əlavə edib.

Onun sözlərinə görə, İzmir Tibb Elmləri Universitetinin Tibb fakültəsinə bağlı olan, “Uşaq sağlamlığı və süni intellekt” şüarı altında Behçet Uz Uşaq Xəstəxanasında keçirilən ilk konqres beynəlxalq xarakter daşıyır. Tədbirə Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Azərbaycan nümayəndələri, eləcə də YTB və TİKA təşkilatlarının təmsilçiləri qatılıb.

Xatırladaq ki, Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyli, kafedranın dissertantı İlahə Hacıyeva və I kurs uşaq nevrologiya və tibbi genetika ixtisası rezidentləri Nərmin Xudaverdiyeva və Aysel Namazova, II Uşaq xəstəlikləri kafedrasının assistenti, Tədris Terapevtik Klinikanın Uşaq sağlamlığı və xəstəlikləri bölməsinin müdiri Qoşqar İsmayılov, həkim-rezident Şəhanə Qasımova Behçet Uz Uşaq Xəstəxanasının baş həkimi Behzat Ozkan və İzmir Tibb Elmləri Universitetinin rektoru, professor Kemalettin Aydının dəvəti əsasında tədbirdə iştirak ediblər.

Universitetimizin təmsilçiləri konqres çərçivəsində Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstanın pediatriya və uşaq nevrologiyası üzrə aparıcı mütəxəssisləri ilə aktual problemlərə dair müştərək layihələrin müzakirəsini aparıblar.

# Sonuncu kurs tələbələrinin Buraxılış imtahanı keçirilir



**Mayın 15-də Azərbaycan Tibb Universitetində sonuncu kursda təhsil alan tələbələrin Buraxılış imtahanı başlayıb. Mayın sonunadək davam edən imtahanın gedişi barədə "Təbib" qəzetinə ATU-nun İmtahan Mərkəzinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ülkər Cəfərova məlumat verib.**





Onun sözlərinə görə, Buraxılış imtahanları – Test və Bacarıq imtahanları (OSKİ) olmaqla iki mərhələli keçirilir: "İmtahanlar fənlər üzrə cədvələ uyğun olaraq 3 gündən bir təşkil olunub. Prosesin mayın 30-da bitməsi planlaşdırılsa da, 25 faiz kəsiri olanlar və üzrlü səbəbdən iştirak etməyən tələbələrə əlavə şərait yaradılacaq. Əlavə imtahanlar mayın 31-i, iyunun 1-i və 3-də baş tutacaq. Eyni zamanda mayın 31-də yaz semestrinin yay imtahan sessiyası başlayır. Doğrudur, imtahanların üst-üstə düşməsi müəyyən çətinliklər yaradır, amma işimizin öhdəsindən layiqincə gəlməyi bacarırıq".

Ü.Cəfərova məzun kursların bir az problemli olduğunu diqqətimizə çatdırdı. Bunu kontingentdə qalan tələbələrin çoxluğu, Elektron Təhsil İdarəetmə Sistemində onların fənlər, bölmələr üzrə yerləşdirilməsi zamanı bəzi problemlərin yarana biləcəyi ilə izah etdi: "İmtahan prosesi zamanı heç bir problemlə üzləşməmişik. Apellyasiya şikayətləri ötən illərə nisbətən azalıb. Tələbələrin imtahanvermə təcrübələri kifayət qədər olduğu üçün proses sakit, qaydalara uyğun gedir. Hazırda II Müalicə-profilaktika və Stomatologiya fakültələrinin tələbələrindən imtahan götürülür.

Qeyd edim ki, yeni tədris standartlarına uyğun olaraq, bu il Əczaçılıq fakültəsinin tələbələri ilk dəfədir ki, bu imtahanlarda iştirak etmirlər. Onlar kafedralarda praktik şəkildə imtahan verirlər".

İmtahanlara nəzarətin necə təşkil olunması ilə maraqlanırıq. Nəzarətçilər zallarda tələbələri kənardan müşahidə edir. İmtahanlara nəzarət qrupunun rəhbəri Pəri İsaqovanın bildirdiyinə görə, tələbələr sakit şəkildə imtahan verir: "16 nəzarətçi ilə imtahanlara nəzarət edirik, onlar olduqca fəaldır. İndiyədək tələbələrimiz tərəfindən qayda pozuntuları müşahidə olunmayıb".

Nəzarətçilərdən Kəmalə İsmayılova, Vəfa Həsənova, Natiqə Nağıyeva, İlkin Şahməmmədli, Rəna Rzaquliyeva, Sevil Kərimova, İlhamə Dadaşova, Sevinc İbrahimovanın fikirlərini öyrənirik. Onlar da tələbələrin heç bir qayda pozmadan, sakit şəkildə imtahanlarını verdiklərini qeyd edirlər.

İmtahandan çıxan tələbələrin təəssüratlarını da öyrənirik. II Müalicə-profilaktika fakültəsinin tələbəsi Türkan Məhərrəmova Daxili xəstəliklər və Klinik biokimiya fənnindən imtahan verdiyini və müvəffəqiyyət qazandığını deyir. Həmin fakültənin tələbəsi Günel Ağalı imtahanın gedişindən narazılığı olmadığını söyləyir.

Təbrizli soydaşımız, Stomtologiya fakültəsinin tələbəsi Əkbər Məhəmmədi də imtahanların gedişindən razıdır: "Neçə ildir Bakıdayam, imtahanların obyektiv, şəffaf şəkildə götürülməsinin şahidi olmuşam. Müəllimlərdən, eyni zamanda xoş münasibətə görə tələbə yoldaşlarımdan razıyam".

Stomatologiya fakültəsinin dekan müavini Aysel Həşimova da imtahanların gedişinə nəzarət edirdi: "Ayın 27-də fakültəmizin son imtahanı olacaq. Dekanlıq əməkdaşları növbəli şəkildə imtahanın gedişinə nəzarət edir. İmtahan prosesindən razıyıq, bəzən informasiya texnologiyaları ilə bağlı problemlə rastlaşırıq, onu da tez bir zamanda aradan qaldırmaq mümkün olur".

Stomatologiya fakültəsinin tələbələri Aslan Davəri, Tohid İlyaqi, Alpərən Osman Kırık da imtahanların gedişindən və yaradılan şəraitdən razıdırlar. Aslan müvəffəqiyyət qazanıb, Təbrizə qayıtmaq fikri var. Tohidin Bakıda çoxlu dostları var, gələcəkdə harada təhsil alacağı ilə bağlı hələ qərar verməyib. Osman isə Türkiyəyə dönməyəcək, rezidentura təhsilini ATU-da davam etdirmək niyyətindədir.

İmtahan verməyə hazırlaşan Hərbi tibb fakültəsinin tələbələri də diqqətimizi çəkir. Tələbələrdən Hafiz Babayev Hərbi toksikologiya fənnindən imtahan vermək üçün növbə gözləyir. İmtahana hazır olduğunu bildirir: "İnanıram ki, o biri imtahanları kimi, bunu da uğurla verəcəyəm. Sadəcə, müəllim və tələbə yoldaşlarımdan ayrılmaq həyəcanını yaşayıram. Bir tərəfdən onlardan ayrılmaq istəmirəm, digər tərəfdən isə anlayıram ki, təhsili bitirib hərbçilərin sağlamlığının keşiyində durmalıyam".

İmtahan prosesinin ayrılmaz hissəsi olan mühafizəçilərdən Mehman Əkbərov və Xanım Ağayevanı iş başında görürük. Onlar zala daxil olan tələbələrin üzərini yoxlayıb içəri buraxırdılar.

**Qabil ABDULLAYEV**

**Mayın 14-də ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə Tədris Cərrahiyyə Klinikasında AzerMDS-in (Həkimlər və Təbib Tələbələr İctimai Birliyi) "101: IFMSA infosessiya" adlı tədbiri keçirilib.**

# AzerMDS-in tələbələrimiz üçün məlumatlandırma seminarı baş tutub



Tədbirdə giriş nitqi söyləyən universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev bildirib ki, AzerMDS akademik mübadilələr, icma layihələri və qlobal sağlamlıq təbliğatı aparır, tələbələrə tibb təhsilini artırmaq üçün misilsiz imkanlar təqdim edir. Prorektor əlavə edib ki, bu təşkilat indiyədək ATU rəhbərliyinin dəstəyi ilə bir çox layihə və mübadilə proqramlarının təqdimatını keçirib, bir sıra ölkələrlə müqavilələr imzalayıb. Universitet rəhbərliyinin bundan sonra da AzerMDS-in fəaliyyətinə dəstək verəcəyini vurğulayan O.İsayev toplantının işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Tədris Cərrahiyyə Klinikasının direktoru Cavid Paşayev vurğulayıb ki, AzerMDS-in fəaliyyəti sayəsində tələbələrimiz universitetimizi beynəlxalq arenada layiqincə təmsil etməklə yanaşı, ölkəmiz və qlobal səviyyədə səhiyyə, tibb təhsili sahəsində karyera imkanlarını genişləndirirlər.

Təşkilatın yaranma tarixi və hazırki fəaliyyəti haqqında məlumat verən AzerMDS sədri Murad Yusifli qeyd edib ki, əsası 1992-ci ildə qoyulan Həkimlər və Təbib Tələbələr İctimai Birliyi azərbaycanlı tibb tələbələrini yerli və beynəlxalq səviyyədə təmsil edən ən böyük və nüfuzlu bir qurumdur: "Bu ictimai birlik yarandığı gündən tibb tələbələrinin karyera imkanlarının artırılması, eləcə də onları fəal vətəndaşlığa və ölkənin ictimai gündəliyində aktiv iştiraka sövq etmək üçün çoxsaylı layihələri icra edib. AzerMDS Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının həmtəsisçisidir və gənclər siyasəti arenasında tibb tələbələrini təmsil etməyə davam edir.

İctimai birlik 2006-cı ildən Beynəlxalq Tibb Tələbələri Assosiasiyaları Federasiyasının (IFMSA) üzvüdür. IFMSA səhiyyə təhsilini yaxşılaşdırmaq, ictimai səhiyyə problemlərini həll etmək və siyasi islahatların təbliğatını aparmaq üçün müxtəlif qlobal təşkilatlarla sıx əməkdaşlıq əlaqələrinə malikdir. Bu əməkdaşlıqlar tibb tələbələrinə yüksək səviyyəli müzakirələrdə iştirak etmək və qlobal sağlamlıq arenasında təcrübə qazanmaq imkanı verir".

Tədbirdə AzerMDS-in komitə sədrləri görülən işlər və təşkilatın funksiyaları barədə ətraflı məlumat veriblər. Onlar bildiriblər AzerMDS üzvləri müxtəlif yerli və beynəlxalq layihələrdə yaxından iştirak edir və könüllü şəkildə geniş fəaliyyət göstərirlər. Həmçinin "AzerMDS nədir", "Tələbələrə hansı imkanları təqdim edirsiniz", "IFMSA nədir" kimi suallar İdarə Heyəti tərəfindən cavablandırılıb.

Bundan sonra AzerMDS-in yetirmələri - ginekologiya və süni mayalanma üzrə mütəxəssis Sevinc Sərdarlı "Sonsuzluq və köməkçi reproduktiv texnologiyalarda (ART) müasir yanaşmalar", yoluxucu xəstəliklər üzrə mütəxəssis Nazxanım Qasımova "Management of complicated skin and soft tissue infections" (ingilis dilində) və kardiologiya üzrə mütəxəssis Firudin Qurbanov "Döş qəfəsi ağrılarına müasir yanaşma, Köln İnfarkt Modeli (KİM)" mövzularında çıxış ediblər.

Sonda tədbirdə iştirak edən gənc həkim, rezident və tələbələrin iştirakı ilə diskussiya aparılıb.

# Tələbələrimiz I yerə layiq görülüb

**Azərbaycan Gənclər Fondunun dəstəyi, Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) və "Xəzər" İntellektual Gənclər Klubunun birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Gənclər təşkilatlarının həmrəylik kuboku" intellektual müsabiqəsi baş tutub.**

Universitetimizin tələbələrinin iştirak etdiyi "AzerMDS" komandası yarışda birinci yerə layiq görülüb. Qeyd edək ki, yarışda ATU-nu Tələbə Həmkarlar İttifaqı Komitəsinin "İntellektual oyunlar klubu"nun üzvləri, Həkimlər və Təbib Tələbələr İctimai Birliyi təmsil edib. 11 komandanın mübarizə apardığı intellekt yarışmasında qalib olan tələbələrimizi təbrik edir və uğurlar arzulayırıq.



**II Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbələri Ailə təbabəti kafedrasında klinik bacarıqlardan imtahan (OSKİ) verib. Tələbələr ağciyərlərin və ürəyin müayinəsi (palpasiyası, perkussiyası, auskultasiyası), arterial nəbzin müayinəsi və ölçülməsi, EKQ-nin təsviri və çəkilişi də daxil olmaqla, öz bacarıqlarını nümayiş etdiriblər.**



# III kurs tələbələri klinik bacarıqlardan imtahan verib

İmtahanın gedişinə nəzarət edən fakültənin III-IV kurslar üzrə dekan müavini, dosent Arzu Bəydəmirova imtahanın qəbulunda kafedranın bütün əməkdaşlarının iştirak etdiyini bildirib. Onun sözlərinə görə, imtahanın nəticəsi 80 balla qiymətləndirilib və tələbələr üçün obyektiv şərait yaradılıb. Tələbələrin imtahanda göstərdiyi nəticələr qaneedici olub.

Kafedranın müdiri, professor İbrahim İsayev qeyd edib ki, imtahan prosesi zamanı tələbələr tərəfindən qayda pozuntularına yol verilməyib: "Universitetimizdə tədrisin keyfiyyətinin artırılması həmişə prioritet məsələ olub. Bu istiqamətdə hər il çoxsaylı qərarlar qəbul edilir. Hazırda ikinci semestrdir ki, bizim kafedrada OSKİ imtahanları uğurla həyata keçirilir. Gələcəkdə kafedrada digər fənlərdən də OSKİ imtahanlarının təşkil olması məsələsi gündəlikdədir".

## Özbəkistan universitetinin nümayəndə heyəti ATU-da

**Bu günlərdə Özbəkistanın Əndican Dövlət Tibb Universitetinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetində olub, Elmi işlər üzrə prorektor, professor Rauf Bəylərovla görüşüb.**



Akademik və tələbə mobilliyi üzrə əlaqələrin genişləndirilməsi, birgə tədbir və layihələrin həyata keçirilməsi, əməkdaşlıq memorandumu barədə müzakirələrin aparıldığı görüşdə universitetin Müalicə işləri üzrə prorektoru Bahromjon Mirzakarimov, Uşaq cərrahiyyəsi kafedrasının müdiri, t.e.d. Jasurbek İbragimov, kafedranın dosenti Farruh Abdurahmonov iştirak ediblər. Onlar universitetin rektoru, professor Madamin Madazimovun salamlarını ATU-nun rektoru, professor Gəray Gəraybəyliyə çatdırmağı xahiş ediblər. Görüşdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşviq Orucov, şöbə müdirinin müavini Nigar Ələkbərova və Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov iştirak ediblər.

Daha sonra qonaqlar universitetimizdəki tədris prosesi və Tədris Cərrahiyyə Klinikası ilə yaxından tanış olub, klinikanın direktoru Cavid Paşayev və Uşaq cərrahiyyəsi kafedrasının müdiri, professor Ramiz Poluxovla görüşüblər.

## Litvalı professordan mühazirə və praktik məşğələ dərsləri

**Litva Sağlamlıq Elmləri Universitetinin Bioloji Sistemlər və Genetik Tədqiqatlar İnstitutunun professoru Alina Smalinskiene Erasmus+ mübadilə proqramı çərçivəsində Tibbi biologiya və genetika kafedrasında akademik fəaliyyət göstərib.**



Qonaq professor tələbələrə mühazirə və praktik məşğələ dərsləri keçib. Professor A.Smalinskienenin "Biotexnologiya: onun tibbə təsiri" mövzusundakı mühazirəsində tələbələrlə yanaşı, ATU-nun müvafiq kafedralarının əməkdaşları da iştirak edib.

Proqramın sonunda Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov və Tibbi biologiya və genetika kafedrasının müdiri, professor Yeganə Şəkərəliyeva qonaq professorla görüşüb və ona müvafiq sertifikat təqdim ediblər.

## Qazax müəllim tələbələrimizə dərs keçib



**Marat Ospanov adına Qərbi Qazaxıstan Dövlət Tibb Universitetinin Terapevtik və ortopedik stomatologiya kafedrasının assistenti Kulmurzin Yerqazi 13-17 may tarixlərində ATU-nun Ortopedik stomatologiya kafedrasında akademik fəaliyyət göstərib.**

Universitetlərimiz arasında imzalanmış əməkdaşlıq memorandumuna əsasən baş tutan səfər çərçivəsində qonaq müəllim Stomatologiya fakültəsinin II-IV kurs rus bölməsinin tələbələrinə mühazirə və praktik məşğələ dərslərini tədris edib. Y.Kulmurzin tələbələrin bilik səviyyəsindən, onların dərsdəki aktivliyindən, həmçinin Ortopedik stomatologiya kafedrasının tədris laboratoriyaları və ATU-nun Stomatoloji Klinikasının Tədris Mərkəzindəki şəraitdən razı qaldığını bildirib.

Akademik fəaliyyətin sonunda Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva və ATU-nun Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov qonaq müəllimlə görüşüb.

## Qazaxıstanlı tələbələr ATU-da qısamüddətli təhsil alıb

**Azərbaycan Tibb Universiteti və S.D.Asfendiyarov adına Qazax Milli Tibb Universiteti arasındakı əməkdaşlıq memorandumu çərçivəsində adıçəkilən universitetin Stomatologiya fakültəsinin 4-cü kurs tələbələri 25.04-11.05.2024-cü il tarixlərində ATU-nun Stomatologiya fakültəsinin Terapevtik stomatologiya kafedrasında "Klinik endodontiya" fənni üzrə təhsil alıblar.**



Kafedranın professor-müəllim heyəti tərəfindən tələbələrə mühazirə və praktik məşğələ dərsləri keçirilib. Qonaq tələbələr, həmçinin universitetin Stomatoloji Klinikasının Tədris Mərkəzində kafedranın təcrübəli müəllimləri tərəfindən təşkil olunmuş master-klaslarda iştirak ediblər.

Dərslərin sonunda tələbələrlə imtahan keçirilib, müvəffəqiyyət qazananlara sertifikatlar verilib.

**Mayın 17-də Səhiyyə Nazirliyi, Azərbaycan Tibb Universiteti, Səhiyyə Nazirliyinin K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu və Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının birgə təşkilatçılığı ilə Azərbaycanda Uşaq Cərrahiyyəsi Günləri I Beynəlxalq Forumunun açılış mərasimi keçirilib.**

# Uşaq cərrahlarının I beynəlxalq forumu keçirilib



Tədbir iştirakçılarını Səhiyyə Nazirliyi adından salamlayan nazir müavini Nadir Zeynalov forumun təbabətin çox mürəkkəb və məsuliyyətli bir sahəsinə həsr olunduğunu vurğulayıb. O, ötən əsrin ortalarınadək uşaqların cərrahi xəstəliklərinin müalicəsinin ümumi cərrahlar tərəfindən aparıldığını xatırladaraq qeyd edib ki, 1940-50-ci illərdə uşaq cərrahiyyəsinin inkişafı əsasən iki amillə bağlı idi: "İlk növbədə yeni doğulmuş uşaqlarda cərrahi korreksiya edilə bilən anadangəlmə qüsurlardan ölüm faizinin aşağı salınmasına və uşaqlara anesteziya xidmətinin göstərilməsi texnikasının təkmilləşdirilməsinə zərurət vardı. Bu məsələlər öz həllini tapdıqdan sonra uşaqlarda cərrahi müalicə üsulları inkişaf etməyə başlayıb və uşaq cərrahlığı cərrahiyyənin bir qolu kimi ayrılıb".

ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov da forumda çıxış edərək uşaq cərrahiyyəsinin inkişaf yolundan söz açıb. ATU-nun Uşaq cərrahlığı kafedrasında peşəkar kadrların fəaliyyət göstərdiyini, həmin kadrların elmi istiqamətdə də uğurla çalışaraq səhiyyəmizə öz töhfələrini verdiyini bildirən prorektor, forumda aparılan qarşılıqlı təcrübə mübadiləsinin bütün mütəxəssislər üçün faydalı olacağına əminliyini ifadə edib.

Azərbaycan Uşaq Cərrahları Assosiasiyasının sədri, professor Ramiz Poluxov uzun illərdən sonra ölkəmizdə uşaq cərrahlarının ilk dəfə belə böyük tərkibdə bir yerə toplandığını deyib. Onun sözlərinə görə, Azərbaycanda uşaq cərrahlarının ilk böyük konqresi 1974-cü ildə baş tutub. Bu baxımdan 9 ölkədən 90 nəfəri aparıcı mütəxəssis olmaqla 150 nəfər elm adamının qatıldığı Azərbaycanda Uşaq Cərrahiyyəsi Günləri I Beynəlxalq Forumu tarixi hadisədir.

Milli Məclisin Səhiyyə komitəsinin üzvü İlham Məmmədov və digər natiqlər də forumun əhəmiyyətindən danışaraq, Azərbaycanda artıq uşaq cərrahiyyəsi məktəbinin formalaşmasından məmnunluqlarını dilə gətiriblər.

Daha sonra forum öz işini panel sessiyalarla davam etdirib. Forumda neonatal, torakal, abdominal, təcili və təxirəsalınmaz cərrahiyyə, koloproktologiya, uşaq yaşlarının uro-andrologiyası, travmatologiya və ortopediyası, uşaqlarda irinli cərrahi infeksiyalar, anesteziologiya və reanimatologiyası, onkologiyası, üz və boyunun anadangəlmə inkişaf qüsurları və tibbin müxtəlif istiqamətlərinə aid məruzələr dinlənilib.

Azərbaycanda Uşaq Cərrahiyyəsi Günləri I Beynəlxalq Forumu Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 26 DTT kredit balı ilə qiymətləndirilib.

## Dünya səviyyəli mütəxəssislər Ortodontiya kafedrasına baş çəkib

**Mayın 16-da ortodontiya sahəsində tanınmış mütəxəssislər Derya Germeç Çakan və Nikhilesh R.Vaid ATU-nun Ortodontiya kafedrasının qonağı olub, kafedranın əməkdaşları, tələbə və rezidentləri ilə görüşüblər.**




Universitetimizdə ortodontiya ixtisasına öz əhəmiyyətli töhfələrini verən tanınmış alimlərlə əməkdaşlıqdan məmnunluğunu dilə gətirən kafedranın müdiri, dosent Ramidə Şadlinskaya bildirib ki, 2006-cı ildən Yeditepe Universitetinin Diş həkimliyi fakültəsinin ortodontiya kafedrasına rəhbərlik edən professor Dərya xanımın əsas araşdırmaları dodaq və damaq yarıqları, üz-kəllə anomaliyaları və interdisiplinar müalicələr üzrədir. Onun çoxsaylı beynəlxalq jurnallarda klinik və tədqiqat məqalələri dərc edilib. Dərya xanım Türkiyə "Ortodontiya" jurnalının baş redaktoru vəzifəsində də çalışıb. Eyni zamanda "Esthetic and Functional Management of Diastema" kitabında bölümlərin müəllifi, Türkiyə Ortodontiya Cəmiyyətinin prezidenti və Türkiyə Dodaq və Damaq Yarıqları Birliyinin icra komitəsinin üzvüdür.

Kafedra əməkdaşlarına professor Nikhilesh R.Vaidin də iş fəaliyyəti haqqında məlumat verən R.Şadlinskaya onun ortodontiya ixtisasının müasir liderlərindən biri olduğunu deyib. Qeyd edib ki, 20 ildən artıq akademik və peşəkar təcrübəsi olan Nikhilesh R.Vaid Dünya Ortodontlar Federasiyasının prezidenti, "Seminars in Orthodontics" jurnalının baş redaktoru, Nebraska Universitetinin və Avropa Universiteti Dental Kollecinin professorudur. 50-dən çox ölkədə xüsusi ortodontik konqreslərə və kurslara dəvət olunaraq mühazirələr oxuyub.

Ortodontiya kafedrasının kollektivinə səmimi qəbul üçün təşəkkürlərini bildirən qonaqlar bu tanışlığın onlarda xoş təəssüratlar yaratdığını deyiblər. Tanınmış mütəxəssislər qısa müddətdə kafedranın lazımi avadanlıqlarla tam təchiz olunmasını, burada peşəkar gənc heyətin çalışmasını, rezidentlərlə işin səviyyəsini yüksək qiymətləndiriblər.

Bu günlərdə Ankara Universitetinin Diş həkimliyi fakültəsinin Ortodontiya kafedrasının professoru Erhan Özdiler və ortodontiya uzmanı Orhan Özdiler də Ortodontiya kafedrasında olublar.

Erhan Özdilerin "Diş həkimliyində botulinum toksininin istifadəsi" və Orhan Özdilerin "Funksional müalicə nəticəsində beyində yaranan aktivliklərin funksional maqnetik rezonans ilə tədqiqi" adlı mühazirələri tələbələr və rezidentlər tərəfindən böyük maraqla qarşılanıb.

## Əməkdaşımız İspaniyadan qayıdıb




Tədris Cərrahiyyə Klinikasının (TCK) həkim-mikrobioloqu və Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun doktorantı Leyla Həşimova İspaniyanın Barselona şəhərində keçirilən 34-cü Avropa Klinik Mikrobiologiya və İnfeksion Xəstəliklər Konqresində (ESCMID Global 2024) iştirak edib. 16 mindən çox mütəxəssisin qatıldığı konqresin elmi proqramlarının xüsusi sessiyaları çərçivəsində ESCMID Təcrübəli Assosiasiyası (TAE-Day) tərəfindən klinik mikrobiologiya və yoluxucu xəstəliklər sahələrində tanınmış ekspertlərlə gənc doktorantların görüşü təşkil olunub.L.Həşimova müxtəlif ölkələrdən gənc doktorantlarla fikir mübadiləsi aparıb, ekspertlərin tövsiyələrini dinləyib.

**Mayın 24-də ATU-nun Qidalanma və tibbi ekologiya kafedrasında BMT-nin İqlim dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29-a həsr olunmuş “İqlim dəyişikliyi və insan sağlamlığı” mövzusunda ekoloji maarifləndirici seminar keçirilib.**

# İqlim dəyişikliyinin sağlamlığa təsiri mövzusunda seminar keçirilib



Tədbir iştirakçıları əvvəlcə kafedranın girişində yaradılmış “Qarabağ Azərbaycandır!” guşəsi ilə tanış olublar. Bundan sonra İctimai səhiyyə fakültəsi ilə adıçəkilən kafedranın birgə təşkil etdiyi, “Yaşıl dünya naminə həmrəylik ili” devizi altında baş tutan tədbirdə Dövlət Himnimiz səsləndirilib və torpaqlarımızın azadlığı uğrunda öz həyatlarını qurban vermiş şəhidlərimizin xatirəsi anılıb.

Seminarın açılışında çıxış edən kafedranın müdiri, dosent Fəridə Əli ilk növbədə müxtəlif dövlət və qeyri-hökumət qurumlarının təmsilçilərini, media nümayəndələrini, ATU-nun professor-müəllim heyətini, tələbələri salamlayıb və tədbirin təşkilinə verdiyi dəstəyə görə rektor, professor Gəray Gəraybəyli başda olmaqla universitet rəhbərliyinə öz təşəkkürünü bildirib.

Dosent Fəridə Əli insanla təbiətin daim vəhdətdə olduğunu, təbiəti insansız, insanı təbiətsiz təsəvvür etməyin mümkünsüzlüyünü diqqətə çatdıraraq qeyd edib ki, elə bu səbəbdən təbiətdə baş verən iqlim dəyişiklikləri insana həm mənfi, həm də müsbət təsir göstərir: “Müasir dünyada bir çox qlobal problemlər, müharibələr, epidemiya və pandemiya təhlükələri, millətlərarası və dinlərarası konfliktlər baş verir, daha önəmlisi isə iqlim dəyişiklikləridir. Bunlar bəşəriyyətin gələcəyi, ümumilikdə Yer kürəsinin mövcudluğu baxımından çox ciddi təhlükə mənbəyi hesab oluna bilər. İqlim dəyişikliklərinin və ekoloji tarazlığın pozulmasında əsas və ən başlıca səbəb ətraf mühitin, atmosfer havasının kimyəvi tullantılarla çirklənməsi və istixana effektinin yaranmasıdır. Kimyəvi maddələr bütün istehsalat sahələrində və insanların həyatında davamlı istifadə olunduğu üçün ətraf mühit müxtəlif formalarda çirklənməyə məruz qalır. Bu isə öz növbəsində ekoloji tarazlığın pozmasına, əsasən əhali



sağlamlığı üçün təhlükəli vəziyyətin yaranmasına səbəb olur. Nəticədə insanlar arasında tənəffüs sistemi xəstəlikləri, kəskin və xroniki zəhərlənmələr, mutasiyalar, uşaqlar arasında fiziki və əqli inkişafdan geri qalmalar və s. müşahidə olunur”.

Tədbirin təşkilində əsas məqsədin qlobal problemlər arasında daha ciddi bəşəri təhlükə sayılan iqlim dəyişikliyi və ekoloji tarazlığın pozulması hallarının insan sağlamlığına təsirləri və təhlükəsi haqqında maarifləndirici söhbətlərin aparılması olduğunu deyən kafedra müdiri, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizdə 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edildiyini xatırladıb. “Nə qədər ciddi problemlər, təhlükələr olsa da, böyük söz ustadı, xalq şairi Səməd Vurğunun dediyi kimi, “Qalib gələcəkdir cahanda kamal!” – deyə Fəridə Əli çıxışını nikbin əhvalla bitirib.

Maarifləndirici seminarda Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti, Mətbuat Şurası İdarə Heyətinin üzvü Umud Mirzəyev də çıxış edərək mövzunun aktuallığına diqqət çəkib. Eyni zamanda BAMF-ın fəaliyyəti haqqında ətraflı məlumat verərək qurumun ekoloji problemlərə həsr olunmuş çoxsaylı layihələr həyata keçirdiyini deyib. Bu layihələr içərisində xüsusilə işğaldan azad olunmuş torpaqların minalardan təmizlənməsi istiqamətində davamlı icra olunan layihənin ətraf mühitin sağlamlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb etdiyini söyləyib.

Daha sonra Əməkdar jurnalist, yazıçı-publisist Akif Əli, şair Yusif Nəğməkar, ATU-nun İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva, Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayev, “Təbib” qəzetinin baş redaktoru, Qarabağ müharibəsi qazisi Məğrur Əliyev, Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrasının müdiri, dosent Şəhla Balayeva, Qidalanma və tibbi ekologiya kafedrasının dosenti Şahalı Səmədov, ATU-nun İctimai Nəzarət Şurasının sədr müavini, dosent Aidə Bəndəliyeva, Elmi Araşdırmalar Mərkəzinin əməkdaşı, dosent Tariyel Eyvazov, jurnalistlər Züleyxa Nadir, Əntiqə Qonaq, həkim-psixiatr Kənan Rəhimov, klinik psixoloq Gülçin Əliyeva və İctimai səhiyyə fakültəsinin Həmkarlar Təşkilatının sədri Səidə Hacıyeva mövzu ətrafında çıxış ediblər.

**Arif MƏMMƏDLİ**

# Hərbi təbabət ixtisası üzrə ilk dissertasiya işinin müdafiəsi baş tutub

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin nəzdində yaradılan birdəfəlik dissertasiya şurasının iclasında tibb xidməti polkovnik-leytenantı, Hərbi tibb fakültəsinin Tibbi-profilaktika kafedrasının baş müəllimi Saleh Əhmədovun hərbi təbabət ixtisası üzrə ölkəmizdə ilk olan dissertasiya işinin müdafiəsi keçirilib.**




İddiaçının hərbi təbabət ixtisasına uyğun olaraq milli təhlükəsizlik və hərbi elmlər sahəsi üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işi müzakirəyə çıxarılıb. Əvvəlcə dissertasiya şurasının sədri, I Daxili xəstəliklər kafedrasının müdiri, professor Vəsadət Əzizov, sədr müavini, professor Məhərrəm Niftullayev və şuranın elmi katibi, dosent Törə Sadıqova çıxış edərək dissertasiya işinin mahiyyətini, aktuallığını, yeniliyini diqqətə çatdırıblar. Bildirilib ki, mövzu Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutu və ATU-nun Hərbi tibb fakültəsinin Tibbi-profilaktika kafedrasının tematik planına daxildir.

Bundan sonra “Hərbi qulluqçular arasında aşkarlanmış vərəm xəstəliyinin epidemioloji xüsusiyyətləri” mövzusunda dissertantın məruzəsi dinlənilib. Elmi rəhbəri ATU-nun Epidemiologiya və biostatistika kafedrasının professoru Vaqif Vəkilov, elmi məsləhətçisi Ağciyər xəstəlikləri kafedrasının müdiri, dosent Rafiq Bayramov olan dissertasiya işinin müzakirəsində Epidemiologiya və biostatistika kafedrasının müdiri, professor İbadulla Ağayev, Kliniki farmakologiya kafedrasının professoru Yusif Nağıyev, Hərbi səhra terapiyası kafedrasının dosenti Rəna Şirvanova, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun professoru Elcan Məmmədbəyov, Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun dosenti Könül Kərimova və başqaları çıxış ediblər. Çıxışlarda hərbi təbabətin tibb sahəsi üçün əhəmiyyətindən, tədqiqatın praktik tövsiyələrindən, nəticələrindən danışılıb. Dissertasiya işinin hərbi terapiya, hərbi gigiyena, hərbi epidemiologiya, hərbi toksikologiya, radiologiya və tibbi mühafizə, tibb xidmətinin təşkili və taktikası sahələrini əhatə etdiyi vurğulanıb.

Qeyd edək ki, hərbi təbabət ixtisası hərbi elmlərin tərkib hissəsi olub, hərbi qulluqçularda inkişaf edən daxili və cərrahi xəstəliklərin elmi-nəzəri, praktik və metodoloji əsaslarını, etioloji, patogenetik, klinik, diaqnostik xüsusiyyətlərini, müalicə-profilaktik üsullarını və cərrahi yardımın təşkilini, kütləvi qırğın silahlarından mühafizənin elmi əsaslarını hazırlayan, həmçinin tibb xidmətini idarəetmə prinsiplərini və qoşunların şəxsi heyətinə döyüş əməliyyatları, təlim hazırlığı, həyat və məişət şəraiti ilə bağlı amillərin təsirini tədqiq edən elm sahəsidir.

# Əməkdaşlarımız Türkiyə universitetində akademik fəaliyyət göstərib

**Azərbaycan Tibb Universitetinin Sitologiya, embriologiya və histologiya kafedrasının dosenti Tamilla Sultanova Türk Dövlətləri Təşkilatı Türk Universitetləri Birliyinin "Orhun" mübadilə proqramı çərçivəsində aprelin 29-dan mayın 12-dək Türkiyənin Niğde Ömer Halisdemir Universitetinin Tibb fakültəsində akademik fəaliyyət göstərib.**





Proqram ərzində T.Sultanova Histologiya bölümü üzrə tədris proqramları ilə tanış olub, praktik məşğələ dərslərinə qatılıb, fakültənin elmi laboratoriyalarında olub, histologiyadan müvafiq bölümə uyğun preparatların sorğu imtahanında iştirak edib. ATU-nun dosenti Stomatologiya fakültəsi tələbələrinə “Embrional inkişafın ilk həftələri”, Müalicə fakültəsinin tələbələrinə isə “Ağız suyu vəziləri, pakreas, qaraciyər” mövzularında mühazirələr oxuyub.

8-22 may tarixlərində isə İctimai sağlamlıq və səhiyyənin təşkili kafedrasının müdiri, dosent Yaqut Hacıyeva eyni universitetdə akademik fəaliyyət göstərib. Y.Hacıyeva Xalq sağlamlığı kafedrasında tələbələrə müxtəlif ölkələrdə səhiyyə sistemləri və səhiyyə siyasəti, səhiyyə xidməti sahəsi ilə tanışlıq, cəmiyyətin sağlamlıq problemlərini və insanların səhiyyə xidmətinə ehtiyaclarını müəyyən etmək, ana və uşaq sağlamlığının monitorinqi, herontoloji problemlər və onların həlli, çoxtərəfdaşlı sağlamlıq yanaşmaları və s. kimi mövzularda mühazirələr oxuyub. Y.Hacıyevanın mühazirələri tələbə və müəllim heyəti tərəfindən maraqla qarşılanıb və ona təşəkkür sertifikatı təqdim olunub.

# Milli Hidrometeorologiya Xidməti ATU-da tədbir təşkil edib



Universitetimizdə “İqlim dəyişmələri kontekstində səhiyyə və gender məsələləri” mövzusunda seminar keçirilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Milli Hidrometeorologiya Xidmətinin təşkilatçılığı ilə keçirilən tədbirdə açılış nitqi ilə İctimai səhiyyə fakültəsinin dekanı Qalina Qəniyeva çıxış edib.

Q.Qəniyeva 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsinin əhəmiyyəti və bu il respublikamızda keçiriləcək COP29 konfransının əsas məqsədlərindən bəhs edib.

Milli Hidrometeorologiya Xidmətinin şöbə müdiri, dosent Fuad Hümbətov iqlim dəyişikliyi ilə bağlı problemlərin aradan qaldırılması yollarından, müasir dünyada bu məsələlərə yanaşmalardan söz açıb. Daha sonra Xidmətin əməkdaşları tərəfindən “Qlobal iqlim dəyişmələrinə qarşı mübarizə prioritetləri və Bakıda keçiriləcək COP29-a hazırlıq işləri”, “İqlim dəyişmələrinə uyğunlaşmada dayanıqlı gender bərabərliyi”, “İqlim dəyişmələrinin insan sağlamlığına təsiri”, “İqlim dəyişmələrinin insan psixologiyasına təsiri və panik atak” mövzularında təqdimatlar keçirilib.

Məruzələrdən sonra dosent F. Hümbətov, eləcə də Xidmətin İqlim dəyişmələri mərkəzinin direktoru Sevinc Əhmədova, məsləhətçisi Nigar Mirkamilli və aparıcı mütəxəssisi Gülçin Əliyeva iştirakçıların suallarını cavablandırıblar. Sonda Milli Hidrometeorologiya Xidməti tərəfindən sual-cavab sessiyasında aktiv iştirak edən tələbələrə təşəkkürnamələr və ATU-nun rəhbərliyinə hava sertifikatları təqdim edilib.

# “Dörd divar arasında” tamaşası yenidən səhnəyə qoyulub

**Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində fəaliyyət göstərən “HƏYAT” teatr klubunun hazırladığı “Dörd divar arasında” tamaşası tələbələrin istəyi ilə yenidən səhnəyə qoyulub. Dəfələrlə səhnəyə qoyulmasına baxmayaraq, tamaşaya marağın azalmaması yaradıcı heyətin uğurudur.**



İki il əvvəl hazırlanan dördpərdəli tamaşada müxtəlif vaxtlarda birotaqlı evə köçən 4 fərqli ailədən bəhs edilir. Ev sahibi hər 4 ailə ilə ayrı-ayrılıqda maraqlanır, onların dərdini-sərini özlərindən daha yaxşı bilir. Tamaşanın ilk pərdəsində söhbət 10 il evli olan, qızlarını təzə itirən bir yazıçı ailəsinin faciəli həyatından gedir. Sonrakı pərdədə cərəyan edən hadisələr ana və onun tələbə qızının hekayəsidir. Ananın pul və sevgi hərisliyi onların başlarına bəla olur.

Üçüncü pərdədə kirayənişin öz beyninin içindəki fikirlərlə toqquşur və həmin fikirlərin onu necə zülmətə çəkdiyini görürük. Dördüncü pərdədə isə ailə ata, ana və onların kiçik qızlarından ibarət, artıq müəyyən çətinliklər yaşamış ailədir. Ev sahibi ən sonda gələrək bu ailənin timsalında 4 divar arasında tək qalmamağın nə qədər gərəkli olduğunu başa salır. Elə tamaşa da ev sahibinin ibrətamiz nəsihəti ilə sona çatır: “Mən 27 ildir bu evi kirayə verirəm. Sizdən əvvəl bu evdə 4 ailə qalıb. Hamısı da bir-birindən fərqli idi. Bir bilsəniz, bu divarlar var ha, nələr eşidib, nələr duyub? Elə vaxt olub, içində qalan insanlarla birlikdə gülüb, ağlayıb. Elə vaxt olub ki, boş qalıbdı... Biri gəldi, ərindən yarımadı. O birisi gəldi, anasından yarımadı. Biri də özündən yarımadı, bunlar da bir-birindən. Yenə bu 4 divar, yenə mən. Siz siz olun, 4 divar arasında qalmayın”.

Əvvəllər olduğu kimi, XI teatr mövsümündə də öz rollarını məharətlə oynayan tələbə aktyorlar Dilbər Rahim (Həyat), Elbəy Cabbarlı (Yaşar), Gülgün Oktay (Firuzə), Fidan Rəhmanlı (Bəyaz), Nicat Əsədov (Bəxtiyar), Fəxri Qardaşov (Ziya), Leyla Cavadova (Təranə), Aytac Şükürlü (Lətafət), Nihad Novruzlu (Arif), Mirhəsən Cəfərov (O), Samirə Heydərova (Ofeliya), Səid Qənbərov (İlqar), Fidan Əsədli (Vəfa) və Nailə Əhmədova (ev sahibi) tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, Dilbər Rahimin ssenari müəllifliyi və rejissorluğu ilə məişət-psixoloji janrda səhnələşdirilən tamaşanın bədii rəhbəri Fidan Rəhmanlı, quruluşçu rəssamı Leyla Cavadova, işıq üzrə rəssamı Rahil Əhmədov, musiqi tərtibatçıları Dilbər Rahim və Zəhra Həsənli, geyim üzrə rəssamı Samirə Heydərovadır.

**A.KAMRANOĞLU**

**Tələbə Gənclər Təşkilatının Hərbi tibb fakültəsi üzrə sədri Nəriman İskəndərovun təşkilatçılığı və fəal tələbələrdən İradə Həsənova, Rüfət Həsənli və Aytəkin Quliyevanın təşəbbüsü ilə tələbələrin çoxsaylı istəkləri nəzərə alınaraq, “Susmayan düşüncələr” adlı seminar keçirilib.**

# Psixoloq tələbələrin suallarını cavablandırıb





Tədbirin qonağı olan tanınmış psixoloq Aytac Nağılı tələbələrlə görüşün məqsədinin gənclərin öz daxili dünyalarını tanımalarına dəstək olmaq, onların özləri və ətraf mühitlə əlaqələrinə təsir edən başlıca amilləri şərh etmək, şəxsin daxili dünyasında apardığı səssiz söhbətlərin onun istək və motivasiyalarına necə təsir bağışladığını göstərmək olduğunu bildirib. Əlavə edib ki, görüşdə məqsəd həm də gənclərimizin fərqindəlik qazanaraq müəyyən qədər öz həyatlarına toxuna bilmələrinə dəstək olmaqdır: “Daha rahat və xoşbəxt necə yaşayaram” deyə özünə sual verə bilirsənsə, deməli, fərqindəlik yaratmağın və yaratdığın fərqindəlikdən istifadə etməyin zamanı gəlib çatıb”.

Psixoloq gənclərin mənəvi cəhətdən özlərini daha yaxşı tanımaları, daxili potensiallarını üzə çıxarmaları, problemi həlletmə bacarıqları haqqında ətraflı məlumat verib. Adətən yeniyetmə və böyüklərlə çalışdığını deyən A.Nağılı gənclərə bir sıra məsələlərin həllində soyuqqanlı olmağı, qarşılaşdıqları çətinlikləri təbii qəbul etməklə adiləşdirməyi tövsiyə edib. Psixoloq gəncliyi düşündürən məsələlərlə bağlı fikirlərini bölüşərək, onlar arasında yaranan münasibətlərin düzgün məcrada davam etməsinin istiqamətləri və nəticələri barədə geniş, məzmunlu söhbət aparıb.

İştirakçıların suallarına həssaslıqla yanaşan Aytac xanım cavablarında hər şeydən əvvəl onların özlərini tapmasına, qarşılaşdıqları çətinlikləri təbii qəbul etməklə çıxış yolunu müəyyənləşdirmələrinə psixoloji baxımdan köməklik göstərə bilib.

Tələbələrin böyük marağına səbəb olan seminarda, həmçinin Hərbi tibb fakültəsindən tibb xidməti polkovniki Şahin Süleymanov, Normal fiziologiya kafedrasının dosenti Rəşid Mahmudov və bir sıra kafedraların müəllimləri iştirak ediblər.

# ATU əməkdaşının ixtirası beynəlxalq patent alıb

**Azərbaycan aliminin protez bazisində anatomik relyefin formalaşdırılması üsulu beynəlxalq səviyyədə patent alıb. Ortopedik stomatologiya kafedrasının assistenti, t.ü.f.d. Yuris Bayramovun müəllifi olduğu elmi-tədqiqat işi beynəlxalq Avrasiya patenti qazanıb.**

Y.Bayramovun sözlərinə görə, ATU-nun Tədris Stomatoloji Klinikası və Ortopedik stomatologiya kafedrasının dəstəyi ilə yerinə yetirilən “Üst çənə tam çıxarılan lövhəli protezinin anatomik relyefinin formalaşdırılması üsulu” adlı tədqiqat işi bu sahədə yenilikdir: “İkincili tam adentiyanın əsas ortopedik müalicə üsulu tam çıxarılan lövhəli protez hazırlanmasıdır. Hazırlanmış tam çıxarılan lövhəli protezi pasiyentin istifadəsinə təhvil verdikdən sonra vaxt keçdikcə protezlərə aid şikayətlər söylənilir. Bu şikayətlərdən ən əsası protezi istifadə etdikcə dadbilmə qabiliyyətinin azalması göstərilir. Müxtəlif ədəbiyyat mənbələrində qeyd olunan şikayətlər pasiyentin fizioloji qocalması və qazanılmış sistemik xəstəlikləri ilə əlaqələndirilir.

Ancaq məlum ənənəvi üsulla üst çənəyə hazırlanmış tam çıxarılan lövhəli protez sahəsinin relyefi protez bazisinin içəri səthində qalır. Protez bazisinin bayır səthi isə cilalanıb pardaqlanmış hamar səth şəklində olur. Əsas problemi yaradan da elə budur. Çünki istənilən funksiya yerinə yetirildikdə, dil həmin nahiyəyə söykənir. Bizim təkmilləşdirilmiş üsulda isə palatinal sahə relyefi eyni ilə protezin bayır palatinal sahəsində də əks olunur və vizual olaraq görünür. Ön palatinal hissədə yerləşən qırışlar dilin üzərindəki dadbilmə məməciklərini təmizləyərək qıcıqlanmasına səbəb olur. Bu isə öz növbəsində dilin üzərindəki məməciklərin atrofiyasını ləngidir və dadbilmənin pozulmasının qarşısını alır”.

Beləliklə, tədqiqat işi qeyd olunan problemi aradan qaldıracaq və bundan əziyyət çəkən pasiyentlər üçün faydalı olacaq.

# Əcnəbi tələbələrimiz yarışıb

**Universitetimizdə təhsil alan əcnəbi tələbələrin iştirakı ilə elmi-tədqiqat müsabiqəsi keçirilib. Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən, “Əcnəbi tələbələrin səsi” təşkilatının (V.O.I.S) dəstəyi ilə təşkil olunan bilik yarışmasına 25 xarici tələbə qatılıb.**



Əcnəbi tələbələrin təqdimatları beş nəfərdən ibarət hakimlər komandası tərəfindən qiymətləndirilib. Bu zaman tədqiqat obyektinin əhəmiyyəti, metodoloji əsaslandırma və məlumatların təhlili kimi bir neçə amil əsas götürülüb. Qiymətləndirmə nəticəsində “Xərçəng müalicəsində mRNA vaksinlərinin rolu” mövzusunda araşdırmaya görə Faisal Badawi və Mohamed Heiro birinci yerə layiq görülüblər.

Tədqiqat müsabiqəsi əcnəbi tələbələrin bilik və bacarıqlarını nümayiş etdirmələri üçün faydalı platformadır. Belə tədbirlər gənclərin öz aralarında təcrübə mübadiləsi aparmasına və akademik şəbəkələrini genişləndirməsinə imkanı verir.

# "Mübariz" filmi nümayiş olunub



Ölkə kinoteatrlarında böyük marağa səbəb olan “Mübariz” filminin universitetimizdə nümayişi baş tutub. Həmkarlar İttifaqı Komitəsi tərəfindən təşkil olunan nümayişdə iştirak üçün 200 tələbəyə hədiyyə biletlər verilib.

Komitənin nümayəndəsi çıxışında bildirib ki, vətənpərvərlik ruhlu bu cür filmlərin tələbələr tərəfindən böyük maraqla qarşılanması gənclərimizin tərbiyəsi baxımından təqdirəlayiq haldır. Filmi ərsəyə gətirənlər tədbirin təşkilinə görə təşkilatçılara təşəkkürlərini bildirib.

Şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildikdən sonra filmin nümayişi keçirilib.

Vətənpərvərlik ruhunda tədbirlər ATU THİK tərəfindən bundan sonra da davamlı təşkil olunacaq.

# II Poeziya müsabiqəsinin qalibləri məlum olub

Tələbə Həmkarlar İttifaqı Komitəsinin nəzdində olan “Kitab klubu”nun təşkilatçılığı ilə Tədris Terapevtik klinikada II Poeziya müsabiqəsi keçirilib.

Klubun sədri, Müalicə-profilaktika fakültəsinin tələbəsi Rüfət Həsənli tədbir iştirakçılarına klubun fəaliyyətindən danışıb və müsabiqə şərtləri haqqında məlumat verib.



R.Həsənlinin sözlərinə görə, bu formatda tədbirlər tələbələr arasında poeziyaya marağın artması məqsədi ilə təşkil olunur. Bu il müsabiqəyə Bakı Dövlət və Xəzər universitetlərinin tələbələri də qatılıb.

Azərbaycan dili kafedrasının dosenti, f.e.n. Dürdanə Nağıyeva və kafedranın baş müəllimi Elnarə Məmmədovanın münsiflər heyəti kimi iştirak etdiyi yarışda I yerə Vüsal Əşrəfli, II yerə Nəcibə Allahverdiyeva, III yerə Sədəf Musayeva layiq görülüblər.

**Etibarsız sayılır**

Əlizadə Həsən Mübariz oğlunun (qrup 218A6b) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Allah rəhmət eləsin!**

II Mamalıq-ginekologiya kafedrasının əməkdaşları kafedranın assistenti Turab Canbaxışova nənəsi

**Süreyya İslam qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan dili kadefrasının əməkdaşları kafedranın dosenti

**Xuraman Məhərrəmovanın**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Tibbi və bioloji fizika kafedrasının əməkdaşları kafedranın baş müəllimi

**Fatma Axundovanın**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

“Təbib” qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun “Təbib” nəşriyyatında çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0010
Sayı 800